22-ci Xəzər Beynəlxalq

# NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ



TransLogistica CASPIAN

**2|3|4 İYUN 2025**

**BAKI EKSPO MƏRKƏZİ**

# SƏRGİ ÜZRƏ HESABAT

www.translogistica.az

# MÜNDƏRİCAT


Sərgi haqqında 2

Sərginin rəsmi açılış mərasimi 3

VİP qonaqların rəyləri 4

Reklam kampaniyası 5

Sərginin informasiya dəstəyi 6

Ziyarətçilər haqqında 7

Ziyarətçilərin rəyləri 8

İştirakçılar haqqında 9

İştirakçıların rəyləri 10

Sərgi çərçivəsində əlavə tədbirlər 11

TransLogistica Caspian 2026 sərgisi 14









TransLogistica CASPIAN

**"TransLogistica Caspian"** sərgisi dəmir yolları, dənizçilik sənayesi və nəqliyyat-logistika xidmətləri kimi nəqliyyat sektorlarını birləşdirən səmərəli platformadır. Sərgi həm Azərbaycanın, həm də region ölkələrinin dövlət nəqliyyat strukturlarını təmsil edən rəhbər və mütəxəssislərlə görüşmək, eləcə də nəqliyyat texnologiyalarının ən son nümunələrini nümayiş etdirmək, perspektiv dövlət infrastruktur layihələri ilə tanış olmaq, məhsular üçün yeni satış kanallarını tapmaq, habelə dəmir yolları, dəniz limanları, eləcə də hərəkət heyətinin istehsalı və gəmiqayırma sahələrində təcrübə mübadiləsi üçün unikal imkan yaradır.

**HƏMÇİNİN, "TRANSLOGISTICA CASPIAN" SƏRGİSİ YÜKDAŞIMA ŞİRKƏTLƏRİ İLƏ YÜK SAHİBLƏRİ ARASINDA GÖRÜŞLƏRİN KEÇİRİLMƏSİ ÜÇÜN İŞGÜZAR PLATFORMA OLMAQLA YANAŞI, XƏZƏR VƏ QAFQAZ REGİONUNDA NƏQLİYYAT-LOGİSTİKA XİDMƏTLƏRİNİN TƏŞVİQİ BAXIMINDAN DA SƏMƏRƏLİ VASİTƏDİR.**

# SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ




2 İYUN 2025-ci İL TARİXİNDƏ BAKI EKSPO MƏRKƏZİNDƏ 22-ci XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİNİN RƏSMİ AÇILIŞI BAŞ TUTMUŞDUR. BAKI ENERJİ HƏFTƏSİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV İŞTİRAK ETMİŞDİR.







# RƏSMİ QONAQLARIN ŞƏRHLƏRİ



### Rəşad Nəbiyev
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri

Əminəm ki, builki "TransLogistica Caspian" sərgisi də ötən illər olduğu kimi yeniliklərin nümayişinə, həmçinin yeni işgüzar əlaqələrin qurulmasına mühüm töhfə verəcək. Sərginin təşkilatçılarına və iştirakçılarına uğurlu və məhsuldar fəaliyyət arzulayıram.



### Şahin Bağırov
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Əminik ki, sərgi çərçivəsində aparılacaq müzakirələr, nümayiş olunacaq innovativ həllər və yaranacaq tərəfdaşlıqlar regional əməkdaşlığa yeni impuls verəcək, nəqliyyat və logistika sahəsində qarşılıqlı faydalı təşəbbüslərə yol açacaqdır.



### Yusif Abdullayev
AZPROMO-nun icraçı direktoru

Əminik ki, builki "TransLogistica Caspian" sərgisi yeni işgüzar əlaqələrin qurulmasına, qarşılıqlı əməkdaşlıqların inkişafına və sektorda innovativ təşəbbüslərin irəli sürülməsinə şərait yaradacaq, Azərbaycanın nəqliyyat sektorunun inkişafına və beynəlxalq əməkdaşlığa töhfə verəcək.



### Məmməd Musayev
Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti

Logistika və ticarət sektoru ölkə iqtisadiyyatının dayanıqlı inkişafında mühüm rol oynayır. Bu sahələr təkcə mal və xidmətlərin hərəkətini deyil, həm də əlavə dəyər zəncirinin formalaşdırılmasını, yeni iş yerlərinin yaradılmasını və iqtisadi gəlirlərin artımını təmin edir. Azərbaycanda bu sahələrin inkişafı beynəlxalq təcrübəyə əsaslanan, rəqəmsallaşmanı və innovativ həlləri təşviq edən strategiyalar üzərində qurulur. Bu baxımdan "TransLogistica Caspian – 2025" sərgisi sənaye mütəxəssisləri və biznes nümayəndələri üçün bilik və təcrübə mübadiləsi aparmaq, yeni tərəfdaşlıqlar qurmaq və regiona investisiya cəlb etmək baxımından unikal imkanlar yaradır.



### Asset Asavbayev
TRASEKA HAK DK-nin Baş Katibi

Sərginin əhəmiyyəti hər il iştirakçıların yüksək tələbi və marağı ilə sübut olunur, belə ki, sərgi nəqliyyat və logistika sahəsində təcrübə və bilik mübadiləsi, qabaqcıl təcrübələrin paylaşılması, eləcə də nəqliyyat dəhlizlərinin inkişafına töhfə verilməsi baxımından nüfuzlu bir platforma kimi özünü təsdiqləmişdir. Sevindirici haldır ki, Nəqliyyat, Tranzit və Logistika Sərgisi nəqliyyat proseslərinin yaxşılaşdırılması və logistika səmərəliliyinin artırılması məqsədilə innovativ həllər və texnologiyaların tətbiqini təşviq edir.

# SƏRGİNİN REKLAM KAMPANİYASI










- BANNERLƏR
- BİLBORDLAR
- MONİTORLAR
- POSTERLƏR

İXTİSASLAŞDIRILMIŞ MƏLUMAT BAZASI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİ İLƏ GÖNDƏRİŞLƏR

TƏRƏFDAŞLARIN, DÖVLƏT STRUKTURLARININ, ASSOSIASIYALARIN VƏ SƏFIRLIKLƏRİN MƏLUMAT BAZALARI ÜZRƏ ELEKTRON POÇT VASİTƏSİLƏ GÖNDƏRİŞLƏR.

MƏLUMATIN İXTİSASLAŞDIRILMIŞ NƏŞRLƏRDƏ, İXTİSASLAŞDIRILMIŞ SAYTLARDA VƏ SOSİAL ŞƏBƏKƏLƏRDƏ YERLƏŞDİRİLMƏSİ

# DƏSTƏK

## RƏSMİ DƏSTƏK

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi

Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası

## TƏŞKİLATÇILAR

## QIZIL SPONSOR

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

## RƏSMİ MEHMANXANALAR

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

## İNFORMASİYA TƏRƏFDAŞLARI

## RƏSMİ RADİO TƏRƏFDAŞI

## İNFORMASİYA DƏSTƏYİ

## İNTERNET DƏSTƏYİ

# SƏRGİNİN ZİYARƏTÇİLƏRİ

**7963**
ZİYARƏT SAYI

**6126**
UNİKAL ZİYARƏTÇİLƏRİN SAYI

## TRANSLOGISTICA CASPIAN 2025 SƏRGİSİNİN ZİYARƏTÇİLƏRİ XƏZƏR NEFT VƏ QAZ 2025 SƏRGİSİNİN ZİYARƏTÇİLƏRİ İLƏ BİRLİKDƏ

### VƏZİFƏLƏR ÜZRƏ ZİYARƏTÇİLƏRİ

- Azərbaycan Respublikası Dövlət nəqliyyat strukturlarının rəhbər və mütəxəssisləri
- Xarici dövlətlərin nəqliyyat strukturlarının rəhbər və mütəxəssisləri
- Azərbaycan Respublikasında yerləşən xarici səfirliklərinin nümayəndələri
- Dəmir yolu, su, hava və avtomobil nəqliyyatı ilə yük daşıma şirkətlərinin rəhbər və nümayəndələri
- Beynəlxalq nəqliyyat təşkilatlarının nümayəndələri
- Yük sahibi olan şirkət və holdinqlərin rəhbərləri və nəqliyyat menecerləri
- Logistika və təchizat üzrə müdirlər və menecerlər
  - Neft-qaz şirkətlərinin müdirləri, logistika və nəqliyyat üzrə menecerləri
  - Tikinti şirkətlərinin müdirləri, logistika və nəqliyyat üzrə menecerləri
  - Müdafiə müəssisələrinin müdirləri, logistika və nəqliyyat üzrə menecerləri
  - Kənd təsərrüfatı və qida sənayesi şirkətlərinin müdirləri, logistika və nəqliyyat üzrə menecerləri
  - Qida sənayesi şirkətlərinin müdirləri, logistika və nəqliyyat üzrə menecerləri

* Ziyarətçilərin siyahısı (şirkətin adı və ziyarətçinin vəzifəsi göstərilməklə) hər sərgi gününün sonunda iştirakçılara göndərilir

Ziyarətçilərin
**99%**
öz səfərini səmərəli hesab edirlər

Ziyarətçilərin
**66%**
satınalma qərarlarını qəbul edir və ya onlara təsir göstərir



# ZİYARƏTÇİLƏRİN ŞƏRHLƏRİ



**Polina Paşennix**
"BMH Rus" ASC-nin
logistika şöbəsinin rəhbəri (Rusiya)

"TransLogistica Caspian" sərgisi şübhəsiz ki, böyükmiqyaslıdır və burada bir çox xarici şirkətlər geniş şəkildə təmsil olunub. Bakı səfərimiz ilk olsa da, sərgidə uzun müddətdir uğurla əməkdaşlıq etdiyimiz müxtəlif ölkələrdən olan tərəfdaşlarla görüşdük. Bundan başqa, Azərbaycan şirkətləri arasında da bizim üçün hələ yeni olan daşımaların həyata keçirilməsi üçün bir çox potensial tərəfdaşlar tapdıq. "TransLogistica Caspian" sərgisində tanınmış logistika şirkətlərinin iştirakı bu tədbirin yükdaşıma sahəsində nə qədər önəmli olduğunu göstərir.

Sərgidən, onun təşkilatçılığından və iştirakçı şirkətlərin təmsilçiliyindən çox razıyıq. "Abbasoglu Lojistica" gənc bir şirkətdir və "TransLogistica Caspian" bizim üçün böyük biznesə aparan özünəməxsus bir körpüdür.



**Rza Abbasoğlu**
Rza Abbasoğlu, "Abbasoglu Lojistica" şirkətinin direktoru



**Vitaliy Biryuçkov**
"AILab" Rəqəmsal Logistika
Platformasında məhsul sahibi

22-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika sərgisi bizim üçün strateji baxımdan dəyərli bir addım oldu. Burada Azərbaycanın və xarici ölkələrin loqistika bazarının əsas iştirakçıları bir araya gəlmişdi. Biz yalnız məhsulumuzu təqdim etməklə kifayətlənmədik, həm də geribildirim əldə etdik, yeni əlaqələr qurduq, potensial inteqrasiya və sahə üzrə tərəfdaşlarla görüşlər keçirdik. Bu tədbir bir daha göstərdi ki, bazar rəqəmsallaşmaya keçməyə hazırdır və biznesin ehtiyacı – bütün iştirakçıları vahid platformada birləşdirən həllərdir. Xüsusilə qeyd etmək istərdik ki, tədbirin təşkilati səviyyəsi yüksək idi. Zəngin proqram, güclü iştirakçı heyəti və rahat atmosfer konstruktiv dialoq və tərəfdaşlıq üçün ideal şərait yaratdı.

Bu sərgi mənim üçün bir növ gözlənilməz bir kəşf oldu. Burada bu qədər geniş logistika şirkətlərinin təmsil olunduğunu, müxtəlif səviyyəli, əməkdaşlığa açıq və peşəkar rəhbərlərin burada iştirak etdiyini gözləmirdim. Artıq ilkin əlaqələr qurulub. İrəlidə biz xidmət keyfiyyətinin təmin edilməsi və yükdaşıma tariflərinin rəqabətə davamlı şəkildə formalaşdırılması ilə bağlı əməkdaşlıq imkanlarını daha dərindən və diqqətlə araşdıracağıq. Hər bir işdə kommunikasiyanın rolu böyükdür. Əgər siz hansısa sahədə uğur qazanmaq istəyirsinizsə, ilk növbədə, birbaşa, üz-üzə ünsiyyət vacibdir. "TransLogistica Caspian" səviyyəsində bir sərgidə bunu eyni anda və geniş miqyasda həyata keçirmək çox rahatdır.



**Oleg Rodin**
"Evro Cargo Line" şirkətinin partnyoru

# SƏRGİNİN İŞTİRAKÇILARI

**42**
ŞİRKƏT

**8**
ÖLKƏ

## İŞTİRAKÇI ÖLKƏLƏR

- AZƏRBAYCAN
- BELARUS
- ÇİN
- GÜRCÜSTAN
- HİNDİSTAN
- İSVEÇRƏ
- RUSİYA
- TÜRKİYƏ



# İŞTİRAKÇILARIN ŞƏRHLƏRİ



Biz sərgidə ölkələr arasında əməkdaşlığı inkişaf etdirmək və mövcud razılaşmaları həyata keçirmək məqsədilə iştirak edirik. Təbii ki, sərgidə hər iştirakçının öz hədəfləri var. Kimsə ehtiyat hissələrinin tədarükü məsələlərini müzakirə edirsə, digərləri yol tikintisi və logistika sahəsində nailiyyətlərini nümayiş etdirir. Lakin sərgidə iştirakın ümumi məqsədi eynidir – yeni müqavilələr bağlamaq, biznes əlaqələri qurmaq və potensial tərəfdaşlar tapmaq.

**Lyubov Aqalova**
"Transtekhnika" Elmi-Tədqiqat İnstitutunun Baş Direktoru (Belarus)



Bizim sahədə rəqabət kifayət qədər güclüdür. Trendlə ayaqlaşmaq və bazarda mövqeni qorumaq üçün dəqiq və məqsədyönlü marketinq yanaşmaları vacibdir. Bu istiqamətdə əsas addımlardan biri də "TransLogistica Caspian" sərgisində iştirak hesab olunur. Son illərdə sərgidə davamlı iştirak müştəri bazasının və gəlirin artmasına müsbət təsir göstərir. Bu il aparılmış danışıqlar isə biznesdə mühüm irəliləyişlərin əldə olunacağına işarə edir.

**Ülvi Ocaqlı**
"Sara Logistics" şirkətinin direktoru və Müşahidə Şurasının sədri



Logistika və anbar xidmətləri sahəsində ixtisaslaşan "Ikra Logistika" şirkəti son illərdə "TransLogistica Caspian" sərgisinin daimi iştirakçısıdır. Bizim üçün sərgi, hər zaman ötən il ərzindəki işlərimizin hesabatıdır. Bu il biz beynəlxalq əlaqələrimizi genişləndirərək Dubayda yeni nümayəndəlik açdıq, Çinlə daşımalarımızı artırdıq və indi Çinlə konteyner daşımaları həyata keçiririk. Azərbaycan həmişə beynəlxalq ticarət üçün vacib bir tranzit mərkəzi olub və qalır. Sərgi ölkəmizə artan marağı aydın şəkildə göstərir.

**Tural Məmmədov**
"Ikra Logistika" şirkətinin Satış Direktoru



Biz "TransLogistica Caspian" sərgisində uzun illərdir iştirak edirik. Hesab edirəm ki, bu tədbirin "Baku Energy Week"lə paralel keçirilməsi mükəmməl bir ideyadır. Biz neft və qaz sənayesi ilə sıx əlaqəliyik və bir çox tanınmış şirkətlərin loqistika tərəfdaşıyıq. Bu əlaqələrin xeyli hissəsi məhz bu sərgidə qurulub. Parallel keçirilən "Caspian Oil&Gas" sərgisi bizim imkanlarımızı genişləndirir və daha çox maraqlı ziyarətçi cəlb etməyə kömək edir.

**Elşad Namazov**
"Absheron Logistics Center", Marketing və Kommunikasiyalar Departamentinin Direktoru



Bu il sərgidə iştirakımızın artıq üçüncü ildir. Bu ənənə, sərginin bizə verdiyi əvəzolunmaz faydanı vurğulayır və biz bu tədbiri perspektivli və faydalı bir layihə kimi dəyərləndiririk. Uzunmüddətli perspektivli layihədən biridir, böyük və etibarlı şirkətlər üçün faydalıdır. Biz burada potensial müştərilər və tədarükçülərlə tanış oluruq. Bu baxımdan, marka tanınması mütləq böyük rol oynayır. Bu sərgi, həmçinin hər il ən azı bir dəfə çox sayda həmkar, tərəfdaş, müştəri və podratçının toplaşdığı ideal bir görüş yeridir. Sərgidə keçirdiyimiz bir neçə gün, geniş əlaqə qurma imkanı yaradır.

**Emil İmamov**
"CJ ICM Logistics" şirkətinin regional meneceri

# İŞGÜZAR PROQRAM

Biznes proqramı çərçivəsində 16 məruzəçinin iştirakı ilə aşağıdakı panel müzakirələri keçirildi:

1. "Azərbaycanda elektrik avtomobilləri üçün infrastrukturun inkişafı"
2. "Dəmir yolu nəqliyyatının rəqəmsallaşdırılması"
3. "Xəzər regionunda multimodal daşımalar: Səmərəli nəqliyyat logistikası təmin edilməsində perspektivlər və çağırışlar"












TransLogistica
CASPIAN

# B2B VƏ B2G GÖRÜŞLƏR







Sərgi zamanı, ikitərəfli biznes görüşləri təşkil olunmuş, bir neçə əsas müştəri ilə eyni anda iş müzakirələrinə əlavə imkanlar yaradılmışdır.

TransLogistica CASPIAN

# AXŞAM ZİYAFƏTİ

Axşam ziyafəti 3 iyun tarixində Buta Palace-də baş tutdu. Axşam ziyafəti çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların yaratdığı rəsmlərin təqdim olunduğu xeyriyyə hərracı keçirildi. Hərracdan əldə olunan bütün vəsait gənc rəssamlara və onların xeyriyyə fonduna bağışlandı.










TransLogistica CASPIAN

23-cü Xəzər Beynəlxalq

# NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ

TransLogistica CASPIAN

3 | 4 | 5 İYUN 2026

BAKI EKSPO MƏRKƏZİ










## BÖLMƏLƏR

- NƏQLİYYAT-LOQİSTİKA XİDMƏTLƏRİ
- KOMMERSİYA NƏQLİYYATI
- HƏRƏKƏT HEYƏTİ VƏ DƏMİRYOL İNFRASTRUKTURU
- AVİASİYA
- DƏNİZÇİLİK SƏNAYƏSİ

www.translogistica.az translogistica_caspian TransLogisticaCaspian #TransLogisticaCaspian

23-cü Xəzər Beynəlxalq

# NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ



**TransLogistica**
CASPIAN

**3 | 4 | 5 İYUN 2026**
**BAKI EKSPO MƏRKƏZİ**

Təşkilatçılar

ceo caspian event organisers · ITECA CASPIAN · caspian event management · icaevents

translogistica_caspian
TransLogisticaCaspian
Translogistica Caspian
#TransLogisticaCaspian

**www.translogistica.az**